# Akademik Tarih ve Düşünce Dergisi

Published by İlkbahar 2022/9-1
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.225


## Səfəvilər Dövlətində Kənd Təsərrüfatı, Sənətkarlıq və Ticarət (Rocer Seyvorinin Tədqiqatı Əsasında)


**Lamiyyə Namazova***
**ORCID: 0000-0002-5004-2765**



**Öz**

Dünya tarixində mühüm rol oynamış dövlətlərdən biri olan Səfəvilərin beynəlxalq arenada güc sahibi olmasını şərtləndirən əsas faktorlarından biri, heç şübhəsiz ki, onun daxili vəziyyətinin sabitliyi və tərəqqisi istiqamətində aparılan tədbirlər olmuşdur. Böyük Britaniya əsilli, Toronto Universitetinin əməkdar professoru Rocer Seyvori də bir çox səfəvişünas alim kimi bəhs edilən dövrün dəyişiklikləri fonunda tədricən geniş vüsət almış yeni iqtisadi münasibətlərə tədqiqatında xüsusi diqqət ayırmışdır. Məqalədə tədqiqatçının mövzu ilə əlaqədar əsərləri əsas götürülərək verilən məlumatların etibarlılığını müəyyən etmək məqsədilə müxtəlif yerli və xarici tarixşünaslıq materiallarına da müraciət olunmuş, müqayisəli təhlil metodu əsasında ümumiləşdirmələr aparılmışdır.



**Anahtar Kelimeler:** Səfəvilər, Rocer Seyvori, Şah I Abbas, səyyahlar

**Gönderme Tarihi: 20/02/2022** **Kabul Tarihi:20/03/2022**



*Dissertant, Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstitutu, "Azərbaycanın orta əsrlər tarixi" şöbəsi, Bakı-Azerbaycan, namazovalamiyya@gmail.com*



***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
Namazova, Lamiyye. ''Səfəvilər Dövlətində Kənd Təsərrüfatı, Sənətkarlıq və Ticarət (Rocer Seyvorinin Tədqiqatı Əsasında).''*Akademik Tarih ve Düşünce Dergisi*, 9-1, 2022, ss.274-289.

# Agriculture, Handicrafts and Trade in the Safavid State (Based on Research by Roger Savory)

**Lamiyya Namazova[*]**
**ORCID: 0000-0002-5004-2765**

**Abstract**

One of the main factors for the Safavids, being one of the countries that played an important role in world history, possessing power in the international arena, were undoubtedly its internal stability and the measures taken to ensure its progress. The Honorable Professor of British Descent from the University of Toronto, Dr. Roger Savory, like many scholars of Safavid history, paid special attention to the new economic relations, which gradually expanded amid the changes of the period. Based on the researcher's works on the topic, generalizations on the basis of comparative research methods were made in the article by referring to the works of different local and foreign scholars with the aim of determining the reliability of the given information.

**Keywords:** Safavids, Roger Savory, Shah I Abbas, travelers

**Received Date: 20/02/2022** **Accepted Date: 20/03/2022**

---

[*] *PhD Candidate, Azerbaijan National Academy of Sciences, Institute of History named after A.A.Bakikhanov, Department of "The medieval history of Azerbaijan", Baku-Azerbaijan, namazovalamiyya@gmail.com*

***You can refer to this article as follows:***
Namazova, Lamiyye. ''Səfəvilər Dövlətində Kənd Təsərrüfatı, Sənətkarlıq və Ticarət (Rocer Seyvorinin Tədqiqatı Əsasında).'' *Academic Journal of History and Idea,* , 9-1, 2022, pp.274-289.

*İlkbahar 2022/ 9-1*
*ss.274-289*

# Сельское хозяйство, Ремесло и Торговля в Государстве Сефевидов (на Основе Исследований Роджера Сейвори)

**Ламийя Намазова[*]**
**ORCID: 0000-0002-5004-2765**

**Резюме**

Одним из основных факторов, способствовавших тому, что Сефевиды, одно из государств, сыгравших важную роль в мировой истории, обрели власть на международной арене, несомненно, стали меры, проводимые в направлении стабильности и прогресса ее внутреннего состояния. Роджер Сейвори, почетный профессор Университета Торонто британского происхождения, также, как и многие историки, изучавшие историю Сефевидов, особое внимание уделял изучению новых экономических отношений, которые постепенно приобрели широкий размах на фоне изменений того периода. Используя работу исследователя по данной теме в статье сделаны обобщения на основе сравнительных методов исследования путем обращения к работам различных отечественных и зарубежных ученых с целью определения достоверности данной информации.

**Ключевые слова:** Сефевиды, Роджер Сейвори, Шах I Аббас, путешественники

**Получено: 20/02/2022** **Принято: 20/03/2022**

[*]*Диссертант, Национальная Академия Наук Азербайджана, Институт Истории имени А.А.Бакиханова, Отдел “Средневековой истории Азербайджана”, Баку- Азербайджана, namazovalamiyya@gmail.com*
***Ссылка на статью:***
Namazova, Lamiyye. ‘’Səfəvilər Dövlətində Kənd Təsərrüfatı, Sənətkarlıq və Ticarət (Rocer Seyvorinin Tədqiqatı Əsasında).’’ *академическая история и мысль*, 9-1, 2022, сс.274-289.

**Giriş**

R.Seyvorinin əsərləri Səfəvilər dövlətinin tarixini tədqiq edən bir çox tədqiqatçılar üçün ilkin mənbə və bir çox hallarda etibarlı təsdiq rolunu oynamışdır. Buna səbəb tədqiqatçının əsərlərində sadəcə farsdilli qaynaqları deyil, dövrün digər qaynaqlarını, xüsusilə də avropalı səyyahların məlumatlarını dövriyyəyə cəlb etməsi idi. Əsərlərində əsasən Səfəvilər dövlətinin siyasi tarixinin tədqiqinə diqqət ayıran müəllif sosial-iqtisadi və mədəni həyatın müxtəlif sahələrini də araşdırmadan kənarda saxlamamışdır.

XVI əsrin əvvəllərində Səfəvi dövlətinin yaranması, yeni inzibati idarə sisteminin qurulması və vahid iqtisadi siyasətin həyata keçirilməsi ölkənin iqtisadi həyatının canlanmasına səbəb oldu. Yeni yaradılmış dövlətin iqtisadiyyatının əsas sahələrini kənd təsərrüfatı, sənətkarlıq və ticarət təşkil edirdi. R.Seyvori "İran Səfəvilərin hakimiyyəti altında" adlı əsərində bu problemə "Səfəvilər dövlətinin sosial və iqtisadi strukturu" adlı xüsusi fəslin "daxili iqtisadiyyat" adlı paraqrafında aydınlıq gətirməyə çalışmışdır

**1-Kənd təsərrüfatı**

Səfəvi dövlətinin iqtisadi həyatına ilk öncə ümumi formada nəzər salan R.Seyvori problemin təhlilinə keçməzdən əvvəl yazır: "*Səfəvi dövlətinin daxili iqtisadiyyatının əsasını kənd təsərrüfatı və maldarlıq təşkil edirdi ... Hökümətin və idarəetmə orqanlarının yüksək təbəqələrində qılınc əhli olan qızılbaşlarla, qələm əhli olan taciklər arasında iki qrupa ayrılma olduğu kimi, cəmiyyətin aşağı təbəqəsində də türkman tayfaları və persiyalı kəndlilər formasında iki qrupa ayrılma vardı. Erkən Səfəvilər dövründə bu iki əsas qrupun həyat tərzi bütövlüklə fərqli idi. Türkman tayfaları maldarlar idi və ətrafda yaşayan əhalidən ayrı yaşayırdılar. Onlar qış və yay mənzillərinə köç edirdilər. Onlar tayfalarda təşkilatlanmışdılar və öz başçılarına itaət edirdilər*".[1] Səfəvi hakimiyyətinin əsasını təşkil edən qızılbaşlar və onların aid olduğu türkman tayfalarının əsas məşğuliyyəti maldarlıq idi. R.Seyvorinin "persiyalı kəndlilər" və "ətrafda yaşayan əhali" kimi təqdim etdiyi əhali isə əsasən kənd təsərrüfatı ilə məşğul idi. Qızılbaşları yerli əhalidən ayırmağa çalışan tədqiqatçı yerli əhalini ümumi adla "iranlı kəndlilər" adlandıraraq onları kəndlərdə yaşayan əkinçilər kimi qeyd edir və daha sonra yazır ki, Şah I Abbasdan əvvəlki dövrdə torpaqların əksəriyyəti əmək haqqı kimi mülki,

[1] Roger Savory, *Iran under the Safavids*, Cambridge University Press, Cambridge 1980, s. 186-187.

hərbi və dini səlahiyyətli şəxslərə verilirdi. Lakin Şah I Abbas dövründən başlayaraq torpaqların çoxu şahın nəzarəti altına keçdi və birbaşa şah təmsilçiləri tərəfindən idarə olundu. Lakin bu torpaq sahibliyinin əsasına təsir etmədi, torpaq sahibləri və kəndlilər arasında məhsul mübadiləsi ümumi razılığa əsaslanırdı: torpaq, su, kotan sürmək üçün heyvan, toxum, əmək. Əgər kəndlinin əməyindən savayı heç nəyi yox idisə, qaydalara görə məhsulun yalnız 20 faizini əldə edə bilərdi.[2] R.Seyvori fransız səyyahı Jan Şardenə əsaslanaraq yazır ki, hətta belə şərtlər altında Səfəvi kəndlisi Avropanın ən məhsuldar hissələrində yaşayan kəndlilərdən daha yaxşı yaşayırdı. Səfəvilər dövlətində hər yerdə kəndlilər gümüş və bəzi hallarda qızıl bəzəklər taxırdılar, yaxşı geyinirdilər. Onların yaxşı ayaq geyimləri var idi, evləri isə mətbəx əşyaları və mebellə (çox güman ki xalçalarla) yaxşı təmin olunmuşdu. Bəzən onlar vəzifəli şəxslər tərəfindən kobud münasibətə məruz qalır, çox zaman məcburi əmək yolu ilə ali təbəqədən olan hökmdar torpaqlarında ağır işə cəlb edilirdilər.[3]

Səfəvi dövləti yaranarkən ölkə dərin iqtisadi tənəzzül vəziyyətində idi. İqtisadi həyatı normal hala salmaq və dövlət xəzinəsinə vəsait axınını artırmaq məqsədilə Səfəvilər ilk vaxtlar hətta kəndlilərin vəziyyətini müəyyən qədər yüngülləşdirməyə məcbur oldular. Şah I İsmayılın dövründə daxili feodal müharibələrinin azalması da kənd təsərrüfatının dirçəlməsinə təkan verdi. [4]

Ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən kəndlilər əkinçiliklə məşğul olurdu. Kəndlilərin əsas kütləsi dövlətdən, feodallardan və digər torpaq mülkiyyətçilərindən ağır şərtlərlə icarəyə götürdükləri torpaqlarda yaşayır və zəhmət çəkirdilər. Yalnız torpaq deyil, su ehtiyatları da feodalların mülkiyyəti sayılırdı. Bir çox Şərq ölkələrində olduğu kimi burada da yağıntının azlığı əkinçilik təsərrüfatında torpağın süni suvarılmasını zəruri edirdi.[5] Əkinçilik təsərrüfatının məhsuldarlığı suvarma sisteminin vəziyyətindən birbaşa asılı idi. Bu dövrdə təbii çaylar və onlardan çəkilən su arxları, kanallar, kəhrizlər və su quyuları suvarma sisteminin əsasını təşkil edirdi. Süni suvarma sistemində su arxları, kəhriz və quyulardan daha geniş istifadə olunurdu.[6] Səfəvi hökmdarları yeni suvarma qurğuları yaradılmasına, köhnə və müəyyən səbəblərdən dağıdılmış suvarma qurğularının bərpa edilməsinə xüsusi diqqət və

---

[2]R. Savory, *a.g.e.,* s. 187.
[3]R. Savory, *a.g.e.,* s. 187; Ann Lambton, *Landlord and Peasant in Persia: A Study of Land Tenure and Land Revenue Administration,* Oxford University Press, London 1953, s. 127-128.
[4]Oqtay Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, Şərq-Qərb, Bakı 2007, s. 196.
[5]O. Əfəndiyev, *a.g.e.,* s. 197.
[6]Nizami Süleymanov, *Səfəvi dövlətinin təsərrüfat həyatı*, Elm, Bakı 2012, s. 19.

qayğı ilə yanaşırdılar. Z.Kanakertsi yazır ki, 1604-cü ildə İrəvan osmanlılardan azad edildikdən sonra Şah I Abbas tərəfindən Çuxursəəd vilayətinə bəylərbəyi təyin olunan Əmirgünə xan Qacar vilayətdə bərpa işləri aparmış, bağlar və bağçalar saldırmış, yeni su arxları çəkdirərək bölgənin suvarma şəbəkəsini xeyli genişləndirmişdi.[7] R.Seyvorinin məlumatlarından aydın olur ki, ölkənin əksər hissəsində məhsulların çoxu yalnız suvarma yolu ilə becərilirdi, bəzi məhsulların, əsasən taxılın əkildiyi suvarılan torpaqların çox güman ki, yalnız ¼-i yağış suları ilə becərilmiş ola bilərdi.[8]

XVI-XVII əsrlərdə ölkənin su təchizatı sistemi inkişaf etdirilərək ildən-ilə daha da təkmilləşdirilirdi. Müxtəlif vaxtlarda Səfəvilər dövlətində olmuş ayrı-ayrı Avropa və Şərq ölkələrinin səyyah və elçiləri ölkənin təsərrüfat həyatında mühüm rol oynayan suvarma sistemi haqqında çox qiymətli məlumat verirdilər. 1623-cü ildə Dərbənddən Niyazabada gələn rus taciri Fedot Kotov bu şəhərin zirvəsi daima qarla örtülü olan uca dağların ətəyində yerləşdiyini və həmin dağlardan çəkilmiş su arxlarının kənd yerlərindən keçərək bağlara axdığını qeyd etmişdir.[9] 1636-1639-cu illərdə Səfəvi ölkəsində olmuş alman alimi və səyyahı Adam Oleari bu ölkənin əhalisinin suvarma sahəsində böyük təcrübəyə və bacarığa malik olduğunu, Səfəvi ölkəsinin sakinlərinin dağlardakı bulaqların suyunu məharətlə dağ ətəyində gətirib burada düzəltdikləri süni göllərə topladıqlarını qeyd etmişdir. Həmin göllərdəki su ilə bağlar və tarlalar suvarılırdı. Arxların qarşısında bir fut hündürlüyündə bəndlər düzəldilir, su bir əkin sahəsindən başqasına məharətlə ötürülürdü.[10] 1647-ci ildə Təbrizdə olmuş Osmanlı elçisi Evliya Çələbi şəhərin suvarma sisteminə diqqət yetirərək yazır ki, Təbrizin bütün suları Səhənd dağından gəlir. Şəhərin daxilində və xaricində olan imarətləri suyla təmin edib çeşməsarlardan axaraq cəmi doqquz yüz ədəd kəhriz və qanovlarla bağlara sərf olunur. Təbriz şəhər içrə doqquz yüz ədəd kəhrizdən başqa, yeddi min su quyusu vardır. Lakin kəhriz suyu quyu suyundan üstün və içməlidir. Bu şəhərin bəzi su quyularının dərinliyi otuz, qırx qulac, yəni 15-20 metr arası dəyişir.[11]

---

[7]Zakariya Kanakertsi, *Xronika*, (per. Marqarita Darbinyan-Melikyan), Nauka, Moskva 1969, s. 70.
[8]R. Savory, *a.g.e.*, s. 187.
[9]Feodor Kotov, *Xojonie kuptsa Fedota Kotova v Persiyu,* Vostoçnaya literatura, Moskva 1958, s. 69.; N. Süleymanov, *a.g.e.*, s. 20.
[10]Adam Oleariy, *Podrobnoe opisanie puteşestviya qolştinskoqo posolstva v Moskoviyu i Persiyu v 1633, 1636 i 1639 qodax*, (per. Pavel Barsov), izdanie İmperatorskoqo Obşestva istorii i drevnostey rossiyskix pri Moskovskom Universitete, Moskva 1870, s. 736-737.; N.Süleymanov, *a.g.e.*, s. 20.
[11]*Evliya Çələbi Səyahətnaməsində Azərbaycan,* (nəşrə haz. M.Rıhtım), Nurlar NPM, Bakı 2012, s. 62.; N. Süleymanov, *a.g.e.*, s. 20.

Ölkədə kənd təsərrüfatı istehsalının inkişafına uyğun olaraq əkin sahələrinin genişlənməsi və yeni təsərrüfat sahələrinin yaranması ilə əlaqədar suya tələbat da artırdı. İsfahanın ətraf məntəqələrində əkinçilik təsərrüfatının getdikcə genişlənməsi həmin bölgələrdə kəskin su qıtlığı yaratmışdı. Dövlət bu problemi həll etmək və əkin yerlərini müntəzəm olaraq su ilə təmin etmək üçün bir sıra mühüm tədbirlər görmüşdü. Jan Batist Tavernye yazır ki, həmin bölgədən axan Zayəndərud çayından tarlalara və bağlara xeyli miqdarda arx çəkilmişdi. Suyun ayrı-ayrı kəndlər və təsərrüfatlar arasında düzgün bölüşdürülməsi və bu zaman ortaya çıxan problemlərin həlli işi dövlətin nəzarətinə götürülmüşdü. Suyun bölgüsünə nəzarət işi mirab adlanan xüsusi məmura həvalə olunmuşdu. Mirabın nəzarəti altında suvarma mövsümlərində hər təsərrüfata həftədə bir dəfə su verilirdi. Növbəni pozaraq təsərrüfatlarına gizlin su aparmaq istəyənlərə ağır cəza verilirdi.[12] Öz əkin yerlərini çay və bulaq suyu ilə suvaranlar su vergisini ödəməyə borclu idilər. Bağ və tarla sahibləri öz təsərrüfatlarını digər su mənbələrindən istifadə edərək suvarırdılarsa, həmin vergini ödəməkdən azad edilirdilər.

Səfəvi hökmdarları Şah I Təhmasibin və Şah I Abbasın həyata keçirdikləri aqrar siyasətə uyğun olaraq vergi sistemində aparılan islahatlar nəticəsində bir sıra vergilərin ləğvi, bəzi vergi və rüsumların azaldılması kənd təsərrüfatının inkişafına müsbət təsir göstərmiş və məhsuldar qüvvələrin inkişafı üçün əlverişli şərait yaranmışdı.[13]

R.Seyvorinin fikrincə, hər növ meyvələr üzüm də daxil olmaqla bol-bol və yüksək keyfiyyətdə istehsal edilirdi.[14] O.Əfəndiyev Əmin Əhməd Razinin verdiyi məlumata əsaslanaraq yazır ki, Təbriz ərazisində yetişdirilən alma, armud, ərik, gavalı, gilas və üzüm əla dad keyfiyyətlərinə malik olmuşdu. O, Ərdəbil, Xalxal, Ordubad və Marağa ərazilərində gözəl meyvə bağlarının olduğunu qeyd edir.[15] Təbriz və onun ətraf əyalətlərində üzümçülüyün inkişafı ilə əlaqədar olaraq şərabçılıq da inkişaf etmişdi. Üzümdən şərab, araq hazırlayan sənətkarlar var idi. XVI əsrin birinci rübündə Təbrizdə olmuş venesiyalı anonim tacir orada ağ və qırmızı şərab satıldığı haqqında məlumat verir.[16] R.Seyvorinin fikrincə, şərab əsasən yəhudilər və ermənilər üçün hazırlanırdı, daha geniş həcmdə sarayda, hətta dini siniflərin üzvləri tərəfindən də istifadə edilirdi. R.Seyvori bu fikrini əsaslandırmaq üçün fransız səyyah

---

[12]N. Süleymanov, *a.g.e.,* s. 23.
[13]N. Süleymanov, *a.g.e.,* s. 25.
[14]R. Savory, *a.g.e.,* s. 187.
[15]O. Əfəndiyev, *a.g.e.,* s. 199.
[16]Seyidağa Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri: sosial-iqtisadi tarixi*, Elm, Bakı 1982, s. 129.

Jan Batist Tavernyenin qeydlərinə istinad edir və yazır: *"Tavernye Kirman kənarında onu evinə dəvət edib bir qədər əla şərab verən varlı molla ilə görüşdüyünü qeyd edir"*.[17] R.Seyvori şərabın dövlət ziyafətlərində müntəzəm olaraq içildiyini və şahların bəzilərinin də bu məsələdə "əfsanəvi bacarığa" sahib olduğunu yazır. Hətta, fikrini daha da sabitləşdirmək üçün bu amili İslam öncəsi fars ənənələrinin İslamın sonrakı inkişafı prosesində daha da gücləndiyini qeyd edir.[18]

Şəxsiyyətlərimizə qarşı bu cür münasibət formalaşdırılması Qərb tarixşünaslığının əsas xəttini təşkil edir. R.Seyvorinin də mövqeyi bu xətdən kənar deyil. Xüsusilə avropalı səyyahların yazdıqlarına istinadən formalaşdırılan bu cür fikirlər – şahların bəzilərinin də bu məsələdə "əfsanəvi bacarığa" sahib olması fikri Səfəvilər dövlətinin tarixinə və onun qurucularına qarşı ləkə yaxmaqdan başqa bir şey deyil.

**2-Sənətkarlıq**

Şah I Abbas dövründə Səfəvilər dövlətində daxili pul tədavülünə diqqət çəkən R.Seyvori aparılan araşdırmalar nəticəsində şahın ən böyük kapitalist və ən çox işçi qüvvəsinə sahib olan sahibkar olduğunu qeyd edir. Bu barədə Amin Bananinin şahın kapitalı öz əlində cəmləməklə apardığı siyasətin digərləri tərəfindən kapital və investisiyanın yığılmasına əngəl olan "Abbasın dövlət kapitalizmi" siyasətini tənqid etməsinə münasibət bildirən tədqiqatçı haqlı olaraq yazır: *"Onun (Amin Banani – L.N.) mühakiməsi bir qədər ədalətsizdir. O, Şah I Abbasın siyasətinin digərlərinin kapital yığımına əngəl olmasını bəyan etməklə yanlışlığa yol verir; ayrı-ayrı tacirlərin ... həddən artıq varlı olmasına dair çoxsaylı sübutlar var"*.[19] Şah I Abbasın iqtisadi siyasətinə qarşı tənqidi yanaşan R.Seyvori Banani adlı müəllif fikrinə istinadən şah karxanalarının sayının fransız səyyah Jan Şardenin Səfəvilər dövlətinə səyahəti vaxtı 32, 1725-ci ildə "Təzkirət əl-müluk"ün məlumatına istinadən isə 33 olmasını yazırdı.[20] Büyutat saray təşkilatında (büyutat – ərəbcə beyt sözünün cəm halı olub ev, bina, təsərrüfat mənasını ifadə edir – L.N.) nazir-i büyutatın rəhbərliyi ilə sarayın tələbatının ödənilməsinə xidmət edən karxanalar var idi. Bu karxanalara sahib-i cəm adlı məmur başçılıq edirdi. Bu beytlərin hər birinin müşrif adlı maliyyə müfəttişi də var idi. Bu müşriflər beytlərin xərc normalarını və qazancını müntəzəm yoxlayıb qeydə alırdı. Bəzən bir neçə beytin maliyyə-

[17]R. Savory, *a.g.e.*, s. 187.
[18]R. Savory, *a.g.e.*, s. 188.
[19]R. Savory, *a.g.e.*, s. 188.
[20]Vladimir Minorsky, *Tadhkirat al-muluk: A manual of Safavid Administration (circa 1137/1725). Persian text in Facsimile (B.M. Or. 94 96)*, W.Heffer & Sons LTD, Cambridge 1943, s. 30.

təftiş məsələlərinə bir nəfər müşrif baxırdı. Müşrif maliyyə əməliyyatları zamanı hazırladığı haqq-hesab sənədlərini nazir-i büyutatın dəftərxanasına təqdim edirdi. V.Minorski bu karxanaları “daxili şöbələr” adlandırır və onların bəzilərinin dövlət manufakturları kimi idarə edildiyini yazırdı.[21] R.Seyvori V.Minorskinin fikrini təsdiq edərək bu cür karxanaların 5000 sənətkar və ustaya iş verdiyini, lakin bunun bütövlükdə dövlətin iqtisadiyyatının inkişafına xidmət etdiyini yazırdı.[22]

Venesiya diplomatı Mikele Membre “Səyahətnamə”sində hələ Şah I Təhmasib dövründə karxanaların mövcud olduğunu qeyd edir və karxana ilə bağlı şah sarayının bir yerdən başqa yerə hərəkəti barədə yazırdı: *“... Aşura qurtardıqdan sonra Şah Təhmasib karxanasına və ya onun saray avadanlığı ilə yüklənmiş dəvələrdən ibarət dəstəyə yüklənməyi əmr etdi və şərqə – Ucana doğru yollandı”.*[23]

Dövlət karxanalarında beş min nəfərədək imtiyazlı və peşakar sənətkar işləyirdi. Onlar şahdan maaş alır və saray işçiləri hesab olunurdular. Dövlətin sifarişi ilə işləyən bu sənətkarlar “boniçə” vergisindən azad edilmişdilər. Səfəvilər dövlətində saray karxanalarının ümumi baş nəzarətçisi yuxarıda qeyd etdiyimiz kimi, naziri-buyutat adlanan dövlət məmuru idi. Şahın ehtiyacları üçün şəhər və kəndlərdə fərdi qaydada hər hansı bir ləvazimat hazırlayanlara isə “ərbabi-təhvil” deyilən məmur nəzarət edirdi ki, əslində o, geyim əşyalarının hazırlanmasına baxır və alqı ilə məşğul olurdu. Jan Şarden ola bilsin ki, burada “mustoufiyi-ərbabi-təhvili” nəzərdə tutmuşdur.[24] O.Əfəndiyevin fikrincə, “mustoufiyi-ərbabi-təhvil” sikkə zərbinə, əmtəə və xammal işlərinə nəzarət edən məmur olmuşdur.[25]

R.Seyvori Səfəvilər dövlətinin iqtisadi həyatında mühüm rol oynayan saray karxanalarının fəaliyyət prinsipləri barədə məlumat verərkən sənətkarlığın nə qədər yüksək səviyyədə inkişaf etməsinə dair maraqlı və faydalı məlumatlar verir. Onun yazdıqlarından məlum olur ki, saray karxanasının işçiləri sənətkarların imtiyazlı təbəqəsini təşkil edirdi. Onlar maaşlarına əlavə olaraq sənətkarların təyinat məktubuna uyğun miqdarı hər üç ildən bir artan cirə, yaxud ərzaq alırdılar. Ərzağın alınma forması boşqabın dörddə biri, yarısı və yaxud da bir boşqab həcmində olurdu. Bir boşqab “yaşamaq üçün zəruri olan və 6-7 nəfəri qidalan-

---

[21]V. Minorsky, *a.g.e.,* s. 29.
[22]R. Savory, *a.g.e.,* s. 188.
[23]*Venesiyalılar I Şah Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri),* (tərc. ön söz, giriş və şərh. Oqtay Əfəndiyev), Təhsil, Bakı 2005, s. 65.; Əhməd Quliyev, *XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti: Mikel Membrenin “Səyahətnamə”si əsasında*, Şərq-Qərb, Bakı 2011, s. 49.
[24]N. Süleymanov, *a.g.e.,* s. 126.
[25]O. Əfəndiyev, *a.g.e.,* s. 261-262.

dırmaq üçün yetərli olan bütün qidalardan" ibarət idi. İşçi arzu edərdisə, cirə əvəzinə pul da ala bilərdi. Bu təxminən 20 tümən dəyərində idi. Bu rəqəm il ərzində 2 tüməndən 35 tümənə qədər dəyişən əmək haqqının miqdarı ilə müqayisə ediləndə məlum olur ki, cirənin çox mühüm faydası var. Əlavə olaraq, yaxşı işləyən işçilərə hədiyyə verilirdi və bəzi hallarda işçi bütün il ərzində qazandığı əmək haqqının həcmində hədiyyə alırdı. Saray karxanasında işləyənlər ümumi iş təhlükəsizliyinə malik idi. Onlar ömrünün sonuna kimi işləyir və heç vaxt işdən qovulmurdular; xəstələnəndə, yaxud da iş bacarıqları azaldığı hallarda onların əmək haqqısı azaldılmırdı və onlar saray həkimləri və əczaçıları tərəfindən pulsuz müalicə almaq hüququna malik idi. Karxanalarda işləyənlərin övladları atalarının ölümündən sonra 12-15 yaşında xidmətə qəbul olunur və ataları öldükdən sonra onların qazancını alırdılar.[26] R.Seyvorinin verdiyi məlumatlar Səfəvilər dövlətində sənətkarlığın hansı səviyyədə inkişaf etdiyini, əmək hüququnun hansı səviyyədə təmin edildiyini çox gözəl şəkildə təsvir edir.

Şah I Abbasdan başlayaraq Səfəvi hökmdarları müxtəlif sənət və peşə növləri üzrə dövlət karxanaları açmış və həmin karxanalardakı istehsal fəaliyyətini daim diqqət mərkəzində saxlamışlar. Şah karxanaları dövlətin müxtəlif sənətkarlıq məhsullarına, xüsusilə silah-sursata ehtiyaclarının ödənilməsində çox mühüm rol oynamışdır. Azad və sahibkar emalatxanalarının istehsal fəaliyyəti və idarəetmə sisteminin dövlət aparatının tam nəzarəti altında olmadığı bir şəraitdə şah karxanaları Səfəvi iqtisadiyyatının dövlət bölməsi kimi fəaliyyət göstərirdi.[27] O.Əfəndiyev yazır ki, Səfəvilər dövlətində hər birinin başında sahib-i cəm olan 33 karxanadan (emalatxanadan) ibarət büyutat mövcud idi. Onun fikrincə, əsl dövlət manufakturası tipli büyutatlar – toxuma emalatxanası, sikkəxana, dərzi sexləri, cəbbəxana, zərgər, dəmirçi, rəssamlıq emalatxanaları var idi.[28] "Şah Təhmasibin təzkirəsi"ndə dövlət sənətkarlıq emalatxanalarının karxana adlandığı vurğulanır: *"... karxanaların bütün adamlarına tapşırdım ki, rumluların (osmanlıların – L.N.) arxasınca getsinlər"*.[29] Mikele Membre karxanaların içərisində silahqayırma işini xüsusi qeyd edir: "*Mətbəxdən qərbə tərəf birbaşa saraya doğru kəsə yol var və bağın içərisində, sarayın digər tininə yaxın, şimala və ya şimal-şərqə tərəf nizələrin düzəldildiyi və boyandığı otaq yerləşir*".[30] Azərbaycan Səfəvi

---

[26]R. Savory, *a.g.e.*, s. 189.
[27]N. Süleymanov, *a.g.e.*, s. 128.
[28]O. Əfəndiyev, *a.g.e.*, s. 255.
[29]*Şah Təhmasibin təzkirəsi* (elmi red. Oqtay Əfəndiyev, tərc. və müq. Əbülfəz Rəhimov), Azərnəşr, Bakı 1996, s. 43.; Ə. Quliyev, *a.g.e.*, s. 49-50.
[30]*Venesiyalılar I Şah Təhmasibin sarayında ...*, s. 51.; Ə. Quliyev, *a.g.e.*, s. 50.

dövlətində yaraq-yasaq istehsalına xüsusi diqqət yetirilirdi. N.Süleymanov Engelbert Kempferin verdiyi məlumata əsaslanaraq yazır ki, hər bir silah növünə aid ayrıca emalatxanada sənətkarlar işləyir və onlara cəbbədarlar nəzarət edirdi.[31]

**3-Ticarət**

R.Seyvori xarici ticarətə olduğu kimi, bazarların daxili işlərinə də xüsusi maraq göstərən Şah I Abbas dönəmi Qəzvindəki bazarın Londondakı birjadan 3 dəfə böyük olduğunu Menverinqin qeydlərinə istinadən qeyd edir. Çox gözəl olması ilə yanaşı, orada ticarətin bütün növləri üzrə mağazalar və hökmdar üçün xüsusi taxt-tac var idi.[32]

Səfəvilər dövləti boyunca ticarət yollarının və kommunikasiyanın sıx şəbəkəsi mövcud idi. Əsas ticarət marşrutları boyu ölkəni əhatə edən karvansaraylar şəbəkəsi ən azından tacirlərin məhsullarının və yük heyvanlarının qorunmasını təmin edə bilirdi. Həmçinin bu şəbəkə tacirlərə gecələdikləri yerlərdə mallarını nümayiş etdirib kiçik ticarətlə məşğul olmalarına imkan verirdi. R.Seyvori yazır ki, karvansaraylar daha kasıb tacirlərə fayda vermək üçün nəzərdə tutulmuşdu. Çünki səyyahlar orada yük üçün əlavə ödəniş etmədən istədiyi qədər qala bilərdi.[33]

Səfəvi dövlətinin sosial-iqtisadi həyatına ciddi maraq göstərən Avropa tacirləri və səyyahlarının gündəliklərində şəhərdaxili karvansaralarla yanaşı, şəhərlərarası karvan yolları üzərindəki karvansaralar haqqında çox qiymətli məlumatlar vardır. İspaniya kralı III Filipp tərəfindən Səfəvi sarayına göndərilən elçi Qarsiya de Silva 1617-1618-ci illərdə Hörmüz, Lar, Kaşan, Şiraz, İsfahan, Qum, Qəzvin şəhərlərində olmuş və şəhərlərarası karvansaralar haqqında çox qiymətli məlumat vermişdir. O, Lar əyalətindən keçən karvan yolu üzərində Kəci adlı karvansaranın və Larla Şiraz arasındakı ərazilərdə yerləşən türkman obaları yanında isə başqa bir karvansaranın olduğunu göstərmişdir. İtaliyalı Pyetro della Valle isə 1619-cu ildə Qəzvin yaxınlığında karvan yolu üzərindəki Bəyim adlı geniş bir karvansarada gecələdiyini və bu karvansaranın I Şah Təhmasibin qızı Zeynəb Bəyim tərəfindən tikdirildiyini qeyd etmişdir.[34] 1623-cü ildə Səfəvi ölkəsinə gələn rus taciri Fedot Kotov yazır ki, Şabranla Şamaxı arasında karvan yollarındakı 3 karvansaranın hər biri möhkəm və yaxşı daş tikililərdir və onların anbarları, tövlələri də vardır. Bu karvansaralar yolçuları quldurlardan qorumaq üçün

[31]Nizami Süleymanov, "Səfəvilər dövründə dövlət karxanaları və onların quruluşu", *Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası*, S. 4, Bakı 2001, s. 99-100.
[32]R. Savory, *a.g.e.*, s. 189.
[33]R. Savory, *a.g.e.*, s. 191.
[34]N.Süleymanov, *a.g.e.*, s. 158.

inşa edilmişdir.[35] 1636-cı ildə Dərbənd-Şamaxı yolu ilə Səfəvi dövlətinə gələn Holşteyn elçisi Adam Oleari Niyazabadla Şamaxı arasında Beşbarmaq adlı yerdə hər divarının uzunluğu 42 addım olan kvadrat şəkilli karvansaranın olması haqqında məlumat vermişdir.[36]

Karvan yolları üzərində elçi, qasid və tacirlər üçün inşa olunmuş karvansaraların fəaliyyəti ölkə daxilində iqtisadi əlaqələrin inkişaf səviyyəsinin əsas göstəricilərindən biri idi. İri şəhərlərin hər birində mühüm ticarət mərkəzi kimi karvansaralar fəaliyyət göstərmişdi. 1585-ci ildə Təbriz şəhəri Osmanlı ordusu tərəfindən tutulduqdan sonra şəhərdə aparılan siyahıyaalınma zamanı 200 karvansara qeydə alınmışdı.[37]

Adam Oleari ölkənin iqtisadi həyatında xüsusi rolu olan karvansaraları xarici tacirlərin qərar tutduğu ticarət məntəqələri adlandırmışdır.[38] Adam Olearidən xeyli sonra, 1671-ci ildə Şamaxıda olmuş, alman aliminin səyahətnaməsindən geniş istifadə etmiş hollandiyalı Yan Streys də Şamaxı barədə maraqlı məlumatlar verir.[39] O, yazırdı ki, Şamaxı şəhərinin cənub hissəsində böyük bazar var və burada çoxlu dükanın yerləşdiyi üstüörtülü, yaraşıqlı cərgələr vardır. Bazarda ayrı-ayrı girişləri, çoxlu dükanları olan iki böyük karvansara da vardır ki, buraya başqa ölkələrdən əcnəbi tacirlər gəlir və öz mallarını satırlar. Onlardan biri Şah karvansarası adlanır. Bu karvansara daha çox rus tacirlərinin dayanacağıdır. O biri isə Ləzgi, yaxud da Tatar karvansarası adlanır. Bura həm də çoxlu yəhudi taciri adyal və çit örpəklər gətirirlər.[40]

Səfəvilər dövlətini XVII əsrdə ziyarət etmiş əcnəbilərin demək olar ki, hamısı bu dövlətdəki karvansaraların ticarət üçün ən rahat və Şərqdə ən gözəl olduğunu vurğulayırlar. Karvansaralar şəhərlərdə tacir malları üçün ən təhlükəsiz yerlər sayılırdı.[41] R.Seyvorinin qeyd etdiyi kimi, tacirlərin geniş ölçüdə təhlükəsizliyinin təmin edilməsi sistemi həm onların

[35]F.Kotov, *a.g.e.*, s.72.; N.Süleymanov, *a.g.e.*, s. 158.
[36]Adam Oleariy, *Opisanie puteşestviya v Moskoviyu i çerez Moskoviyu v Persiyu i obratno* (per. Aleksandr Lovyaqin), izdanie A.S.Suvorina, Sankt-Peterburq 1906. А.Олеари, *Описание путешествия в Московию и через Московию в Персию и обратно*, s. 456.; N.Süleymanov, *a.g.e.*, s. 158.
[37]İbraqim Peçevi, *İstoriya: İzvleçeniya po istorii Azerbaydjana i sopredelnıx stran i oblastey perioda 1520-1640 гг.*, (per. Ziya Buniyatov), Elm, Baku 1988, s. 65.
[38]A. Oleariy, *Podrobnoe opisanie ...*, s. 584.
[39]Yaqub Mahmudov, *Səyyahlar, kəşflər, Azərbaycan*, Təhsil, Bakı 2012, s. 273.
[40]Yan Streys, *Tri puteşestviya: Po İtalii, Qreçii, Liflyandii, Moskovii, Tatarii, Midii, Persii, Ost-İndii, Yaponii i razliçnım druqim stranam. 1647-1673* (per. E.Borodinoy), Sotsekqiz, Moskva 1935, s. 245.
[41]Mirqeydar Qeydarov, *Torqovlya i torqovıe svyazi Azerbaydjana v pozdnem srednevekove*, Elm, Baku 1999, s. 24-25.; R. Savory, *a.g.e.*, s. 191.

şəxsiyyətinə, həm də əmlakına görə edilirdi.[42] Yəni görülən işlər dövlətin iqtisadi inkişafı naminə idi.

Şəhərlərdəki karvansaralar ticarət mərkəzləri idi və burada başqa ölkələrdən gəlib yerləşmiş tacirlər topdansatış ticarəti ilə məşğul olurdular. Həmin karvansaralarda hər bir tacir "hücrə" adı ilə məlum olan mənzil kirayə edir və ondan kanton kimi istifadə edirdi. Onun malı da həmin karvansaranın anbarında yerləşdirildi. Şəhərdaxili karvansaralar karvan yolları üzərində yerləşən yolüstü karvansaralardan fərqlənirdi. Yolüstü karvansaralarda tacir və ya hər hansı adi yolçu sadəcə olaraq gediş-gəliş zamanı mənzilbaşına çatmaq üçün yerləşib qalırdı. Ancaq şəhərdaxili karvansaralar topdansatış mərkəzləri kimi fəaliyyət göstərirdi. Belə karvansaralarda mal sahibləri aylarla, illərlə yaşayır və alqı-satqı işləri ilə məşğul olurdular.[43] Qaynaqlarda topdansatış mərkəzləri olan "Xaceqan xanları" (Tacir sarayları) haqqında da məlumatlar vardır. Evliya Çələbi Təbriz şəhərində 200 karvansara və 70 xaceqan xanı olduğunu qeyd edir. Onun fikrincə, Təbriz karvansaraları arasında Zübeydə, Şah Cahan, Şah İsmayıl, Pirbudaq xan, Cahanşahın qızı Aləmşah Bəyim karvansaraları xüsusi fərqlənmişdi.[44]

[42]R. Savory, *a.g.e.,* s. 192.
[43]N. Süleymanov, *a.g.e.,* s.160.
[44]*Evliya Çələbi Səyahətnaməsində* ..., s. 60.

## Sonuç

R.Seyvori tədqiqatında Səfəvi tarixinin mühüm məsələlərinə toxunmuş və onu bütövlükdə ingilisdilli tədqiqatçılar kimi bəşəriyyətin mədəniyyət xəzinəsinə qiymətli töhfələr vermiş dövlət kimi səciyyələndirilmişdir. Səfəvi dövlətinin süqutunun səbəbi kimi Qərb tarixşünaslığında siyasi və ikinci dərəcəli subyektiv amillər önə çəkdiyi halda, Azərbaycan və Rusiya tarixçilərinin, demək olar ki, hamısı sosial-iqtisadi, habelə Avropa ölkələrində istehsalın kapitalist üsulunun inkişafı və dünya ticarət yollarının yerdəyişməsi kimi beynəlxalq əhəmiyyətli amilləri əsas götürürlər. Bu məsələlər kontekstində iqtisadi münasibətlərə təsir göstərən faktorlara müxtəlif Səfəvi hökmdarları dövrü nəzər salan müəllif, öz ümumiləşdirmələri ilə səfəvişünaslıq sahəsinə qiymətli töhfə vermişdir.

**Kaynaklar**

*Evliya Çələbi Səyahətnaməsində Azərbaycan*, (nəşrə haz. M.Rıhtım), Nurlar NPM, Bakı 2012.

ƏFƏNDİYEV, O., *Azərbaycan Səfəvilər dövləti*, Şərq-Qərb, Bakı 2007.

KANAKERTSİ, Z., *Xronika*, (per. Marqarita Darbinyan-Melikyan), Nauka, Moskva 1969.

KOTOV, F., *Xojonie kuptsa Fedota Kotova v Persiyu,* Vostoçnaya literatura, Moskva 1958.

QEYDAROV, M., *Torqovlya i torqovıe svyazi Azerbaydjana v pozdnem srednevekove*, Elm, Baku 1999.

QULİYEV, Ə., *XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti: Mikel Membrenin "Səyahətnamə"si əsasında*, Şərq-Qərb, Bakı 2011.

LAMBTON, A., *Landlord and Peasant in Persia: A Study of Land Tenure and Land Revenue Administration*, Oxford University Press, London 1953.

MAHMUDOV, Y., *Səyyahlar, kəşflər, Azərbaycan*, Təhsil, Bakı 2012.

OLEARİY, A., *Podrobnoe opisanie puteşestviya qolştinskoqo posolstva v Moskoviyu i Persiyu v 1633, 1636 i 1639 qodax*, (per. Pavel Barsov), izdanie İmperatorskoqo Obşestva istorii i drevnostey rossiyskix pri Moskovskom Universitete, Moskva 1870.

OLEARİY, A., *Opisanie puteşestviya v Moskoviyu i çerez Moskoviyu v Persiyu i obratno* (per. Aleksandr Lovyaqin), izdanie A.S.Suvorina, Sankt-Peterburq 1906.

ONULLAHİ, S., *XIII-XVII əsrlərdə Təbriz şəhəri: sosial-iqtisadi tarixi*, Elm, Bakı 1982.

MINORSKY, V., *Tadhkirat al-muluk: A manual of Safavid Administration (circa 1137/1725). Persian text in Facsimile (B.M. Or. 94 96),* W.Heffer & Sons LTD, Cambridge 1943.

PEÇEVİ, İ., *İstoriya: İzvleçeniya po istorii Azerbaydjana i sopredelnıx stran i oblastey perioda 1520-1640 гг.*, (per. Ziya Buniyatov), Elm, Baku 1988.

SAVORY, R., *Iran under the Safavids*, Cambridge University Press, Cambridge 1980.

STREYS, Y., *Tri puteşestviya: Po İtalii, Qreçii, Liflyandii, Moskovii, Tatarii, Midii, Persii, Ost-İndii, Yaponii i razliçnım druqim stranam. 1647-1673* (per. E.Borodinoy), Sotsekqiz, Moskva 1935.

SÜLEYMANOV, N., *Səfəvi dövlətinin təsərrüfat həyatı*, Elm, Bakı 2012.

SÜLEYMANOV, N., "Səfəvilər dövründə dövlət karxanaları və onların quruluşu", *Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası*, S. 4, Bakı 2001, s. 98-101.

*Şah Təhmasibin təzkirəsi* (elmi red. Oqtay Əfəndiyev, tərc. və müq. Əbülfəz Rəhimov), Azərnəşr, Bakı 1996.

*Venesiyalılar I Şah Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri)*, (tərc. ön söz, giriş və şərh. Oqtay Əfəndiyev), Təhsil, Bakı 2005.